**UOT:159.9.**

# SAZ-SÖZ USTADI - BÖYÜK SƏNƏTKAR – DƏDƏ ŞƏMŞİR

***Abdullayeva Gülnar Vahid qızı***
***Bakı Dövlət Universiteti-Qazax filialı***
**Abdullayevagulnar03@gmail.com**

**Xülasə:** *Azərbaycan şifahi və yazılı əbədiyyatının iki böyük ustadı Dədə Şəmşir və Səməd Vurğunun görüşü və bu görüşdən sonra yaranan əsərlər əbəbiyyat tariximizin inciləridir. Hər iki görkəmli sənətkar bir-birinin yaradıcılığının məftunu və yaxın dost olmuşlar. Onları bir –birinə yaxınlaşdıran məqam isə söz sənətinə, Vətənə, onun torpağına, suyuna, havasına vurğun olmaları olub. Dədə Şəmşir sadəcə sıradan bir aşıq olmayıb, eyni zamanda müasiri olan şairlərə bənzəyən şeirləri, Səməd Vurğun kimi bir sənətkara obyektiv qiymət vermək bacarığı ilə həm də yazılı ədəbiyyatın nümayəndəsi sayıla bilər. Səməd Vurğun və Dədə Şəmşir yaradıcılığı ədəbiyyatımızın misilsiz incilərindəndir.*

**Açar sözlər:** Səməd Vurğun, Dədə Şəmşir, böyük şəxsiyyət, söz sənəti, dostluq, vətən sevgisi.

**Ключевые слова:** Самед Вургун, Дада Шамшир, великая личность, искусство слова, дружба, патриотизм.

**Keywords:** Samad Vurghun, Dada Shemshir, great personality, word art, friendship, love of motherland.

***Qədim köklərə malik olan Azərbaycan aşıq sənəti ənənələrinin davam etdirilməsi və zənginləşdirilməsində Aşıq Şəmşirin böyük əməyi vardır.***

***Heydər Əliyev***

Azərbaycan tarixində yüzlərlə parlaq şəxsiyyət olmuşdur. Onların hər birinin həyatı, yaradıcılıq yolu bugünkü nəsil üçün bir örnəkdir. Belə görkəmli şəxslər tarix yaradıb, tarix isə bugün də onları yaşadır. Azərbaycan xalqı çox qədim və müdrik xalqdır. Bununla yanaşı, o, həm də ağsaqqal-ağbirçək hörməti saxlayan bir xalqdır. Azərbaycan xalqı həmişə öz sənətkarlarının qiymətini bilmiş, onların bədii irsini bugünkü günə kimi qoruyub saxlamışdır. Folklor və yazılı ədəbiyyat həmin görkəmli şəxsiyyətlərin bizə mirasıdır. Onların bizə miras qoyduğu bu xəzinəni biz həyatımızın hər anında istifadə edirik və nəsildən-nəsilə ötürürük. Saz da türk dünyasının, türk dünyagörüşünün şah əsəridir. Saz tarix boyu at belində dolaşan bu millətin sirdaşı, könül dostudur.

Xalqın tarixi dəyəri və mənəvi inkişaf səviyyəsi həmin xalqa mənsub yaradıcı şəxslərin yaradıcılıq fəaliyyət nəticələri ilə müəyyən olunur. Təbii ki, Azərbaycan xalqının yaradıcılıq istiqamətlərindən bir də çoxəsrlik aşıq musiqisində təzahür olunur. Bu, xalqın fəlsəfi mədəniyyətinin formalaşdığı xüsusi bədii təfəkkür sahəsidir. Bu incəsənət növündə poeziya, musiqi, rəqs, ifaçılıq sintezi özünü göstərir.

Aşıq musiqisi, aşıq insanın mənəvi dəyərlərini, əməllərini tərənnüm edir və bundan ilham alır. Aşıq sənətinin əsas mövzuları – məhəbbət və təbiət gözəlliyi, insan və onun əməlləridir. Özü də bu yaradıcılıq prosesi sintez, yəni teatrlaşdırılmış şəkildə improvizator aşıq tərəfindən sazda ifa kimi tərənnüm olunur. Parlaq, güclü təsirə malik xarakterik musiqi obrazı ilə birgə bədii sözün təsir gücü artıq bir çox əsrlərdir ki, nəinki romantik məhəbbət və əzab-əziyyət, eləcə də doğma torpağa, vətənpərvərliyə, xalq adət və ənənələrinə sədaqət zəminində xalqın həm musiqi təfəkkürünü, eləcə də fəlsəfi mədəniyyətin mənəvi sahəsini formalaşdırır. Aşıqlar çoxsimli sazda «Cəngi» qəhrəmanlıq obrazlarını xüsusilə parlaq yaradırlar. Aşıqların bədii yaradıcılıqlarında Azərbaycan xalqının estetik keçmişi və bu günü təkrarsız orijinallıqla, bədahətən improvizasiya ilə, saz və oxunun lirik səslənmə və teatrlaşdırılmış cəlbediciliklə xalq musiqi təfəkkürünün canına və qanına hopmuşdur.

Aşıq yaradıcılığında xüsusi yeri olan ustad aşıqlardan biri də istedadlı xalq sənətkarı Aşıq Şəmşirdir. Aşıq Şəmşir 1893-cü ildə Kəlbəcərin Dəmirçidam kəndində məşhur şair Ağdabanlı Qurbanın ailəsində dünyaya göz açıb. El şairi Ağdabanlı Qurban Azərbaycan və fars dillərində mükəmməl mədrəsə təhsili almışdı. Onun çoxlu qoşma, gəraylı, müxəmməs, divani, təcnis və digər formalarda şeirləri dillər əzbəri olub. Saz-söz ustadının Aşıq Ələsgər, Növrəs İman və Bimar Əli ilə maraqlı deyişmələri yaddaşlardan yazılı ədəbiyyata köçürülüb. Aşıq Şəmşir Azərbaycanın çoxəsrlik şifahi sənət ənənələrini layiqincə davam etdirərək meydana gətirdiyi rəngarəng poetik-bədii nümunələrlə milli folklor xəzinəsini daha da zənginləşdirmiş görkəmli söz ustalarındandır. Qədim saz havalarının və dastanların mahir ifaçısı kimi tanınan el sənətkarı daim vətən torpağına bağlı olub, yaradıcılığı boyunca xalqın duyğu və düşüncələrini, yüksək mənəvi keyfiyyətləri və yurdun təbiət gözəlliklərini tərənnüm etmişdir.(2.səh18, 19)

Aşıq Şəmşir Aşıq Ələsgərdən sənət dərsi alıb. Onun aşıqlıq sənətinin inkişafında Göyçə və Kəlbəcər mühitinin və bu yerlərdə yaşayan ustad aşıqların böyük təsiri olub. Aşıq Şəmşir, sözün həqiqi mənasında bir el dədəsi, ağsaqqalı olmuşdur. Təbii ki, bu adın qazanılması şəxsin dediyi söz və ifadənin məna tutumundan, sambalından asılıdır. Elə bu baxımdan onun yaradıcılığında atalar sözləri və zərb-məsəllərin istifadəsinə tez-tez rast gəlirik. Aşıq Şəmşir üç dastanın,iki yüzdən çox qoşmanın, yüzə yaxın təcnisin, otuzdan çox deyişmənin, iyirmi gəraylının, on dörd ustadnamənin, yeddi divaninin, altı qəzəlin, onlarla bayatının,bir sıra dodaqdəyməzin müəllifidir. Aşıq Şəmşirin yaradıcılığında qoşmaları xüsusi yer tutur. Bu goşmalar orijinallığı, gözəlliyi və obrazlılığı ilə diqqəti cəlb edir: Aşığın ustadnamələri dərin fəlsəfi tutumu və yüksək şeiriyyəti ilə seçilir. Onun "Olmaz", "Eylər", "Demək olmaz", "Yərək", "Yaraşmaz" kimi ustadnamələrində yüksək mənəvi keyfiyyətlər və mənəvi-əxlaqi dəyərlər təbliğ olunur.

Aşıq Şəmşir həm də məhşur aşıq havalarının - "Kərəm şikəstəsi", "Göyçə gulu", "Şahsevən","Güllü qafiyə", "Qaragöz bala", "Təcnis" və sairənin gözəl ifaçısı olub. Ümumiyyətlə, Aşıq eyni zamanda sənətin sinkretizmini davam etdirib yaşadan, söz qoşub saz çalan, qoşulan nəğmələri məharətlə oxuyan, dastan qoşan, saz havaları yaradan, bütün havacatı öz sazında çalıb-çağıran, söylədiyi nağılı, dastanı müxtəlif rəqslər, pantomim mizanlar-qaş, göz, bədən hərəkətləri ilə bəzəyən, sazla sözün vəhdətini yaradan,öz dinləyicisinə yüksək mənəvi-əxlaqi və estetik dəyərlər aşılayan improvizatordur. Ustad sənətkar həm də gözəl səsə malik aşıq olub. Onun şaqraq zilə malik böyük səs diapazonu, qüclü səsi, dürüst və səlis tələffüzü sənətkara el içində böyük hörmət qazandırıb. O, "Şarili", "Baş Sarıtel", "Qaytarma", "Kərəm şikəstəsi" və digər havaları böyük məharətlə ifa edib.

Ustad sənətkar mahnılar da qoşub. Onun "Şəmşiri" və "Səmədi" adlı iki mahnısı vardır. Aşıq həm də "Şəmşir və Sənubər" dastanının müəllifidir. Aşıq Şəmşir çox sayda aşıq havalarını lentə yazdırmışdır. 1956-cı ildə o, aşıq musiqisinin tədqiqatçısı Əminə Eldarovanın dəvəti ilə konservatoriyada olub, 73 aşıq havasını lentə yazdırıb. Hər bir ustad aşıq kimi Aşıq Şəmşir də çoxlu sayda - 39 şagird yetişdirib. O, öz şagirdlərinə övladları kimi baxıb, öz evində saxlayıb, onlara təmənnasız müəllimlik edib. Ustad sənətkar mahnılar da qoşub. Onun "Şəmşiri" və "Səmədi" adlı iki mahnısı vardır. Aşıq Şəmşirin qeyri-adi səsi və çalğısı saz-söz sərrafı olan Kəlbəcər ellərində yüksək dəyərləndirilir, ustad sənətkarın orijinal ifaçılığı və şairliyi heç kəslə müqayisə edilmirdi. Aşıq həm də "Şəmşir və Sənubər" dastanının müəllifidir. Aşıq Şəmşir çox sayda aşıq havalarını lentə yazdırmışdır. 1956-cı ildə o, aşıq musiqisinin tədqiqatçısı Əminə Eldarovanın dəvəti ilə konservatoriyada olub, 73 aşıq havasını lentə yazdırıb. Hər bir ustad aşıq kimi Aşıq Şəmşir də çoxlu sayda - 39 şagird yetişdirib. O, öz şagirdlərinə övladları kimi baxıb, öz evində saxlayıb, onlara təmənnasız müəllimlik edib. (8)

Azərbaycan şeirinin bayraqdarı, Xalq şairi Səməd Vurğun Kəlbəcər dağlarında bu istedadlı el sənətkarı ilə tanışlığını sənət aləmində nadir tapıntı hesab etmişdi. Aşıq Şəmşir yüksək poetik zövqə malik olan Səməd Vurğunun geniş mədəni ictimaiyyət üçün "kəşfı”

olduğu kimi, eyni zamanda, onun canlı xalq yaradıcılığı ilə ünsiyyətə olan ehtiyacının, təşnəsinin ödəndiyi, qidalandığı coşğun bulaq idi. "S.Vurğun məhz xalq sənətkarları arasında Qurbani kimi, Miskin Abdal kimi azman bir sənətkar axtarırdı. Elə bir sənətkar ki, onunla yanaşı durmaq qabiliyyətinə malik olsun, sözünün qabağına söz deyə bilsin. S.Vurğun el məclislərində olurdu, hər yerdə məşhur aşıqların yaradıcılığına, ifaçılığına xüsusi maraq göstərirdi. S.Vurğun Şikəstə Şirinə, Bozalqanlı Hüseynə və digər saz-söz sərraflarına şeirlə məktublar yazdı, onları yerindən tərpətdi. Lakin onların əks-sədasını duymadı və cavabını ala bilmədi. S.Vurğun öz düşüncəsində nəyi isə, kimi isə axtarırdı, lakin tapa bilmirdi. Aşıq Şəmşirin bir qoşmasını dinləməklə sanki Səməd axtardığını tapdı.

1955-ci ildə onun həyatında dərin iz buraxan bir hadisə baş verir. Aşıq Şəmşirin həmən ilin yayında Kəlbəcərdə sevimli şairimiz Səməd Vurğunla görüşü tarixi bir hadisəyə çevrilib. Azərbaycanın Xalq şairi Səməd Vurğun respublikanın rayonlarına səfərə çıxıb. Bu dəfə o, Kəlbəcərə də gəlib. Şairi qarşılayanlar arasında aşıq Şəmşir də var idi. O, Səməd Vurğunu öz qoşma-şerləri ilə salamlayır.

Bu görüşlər bir dastana çevirilir. Deyişmələri iki-üç günün icərisində bütün bölgələrə yayılmağa başlayır. Hətta bu xəbəri eşidən, Vurğun sevənin pərəstişkarı olanlar da Kəlbəcərə axışır. Demək olar ki, hər axşamüstü buna bənzər məclislər qurulur. Səməd Vurğun və Aşıq Şəmşir dastanı bu gündə məclislərin əsas mövzusudur. Dədə Şəmşiri Azərbaycana tanıdan Səməd Vurğunu aşıq həm sənətkar, həm də bir qardaş məhəbbəti ilə sevmiş, Vurğunun «Məni» rədifli qoşmasına cavab olaraq «Səni» şeirini yazmışdır. Baxmayaraq ki, Səməd Vurğun aşıqdan bir neçə yaş kiçik idi, lakin Dədə Şəmşir Vurğun poeziyasının hansı zirvədə olduğunu bütün ruhu ilə duymuş, hətta «Səndən dərs almağa diyarbədiyar, Gəzirəm əlimdə şam-çıraq səni» yazmışdır. Atalar gözəl demişlər ki, zər qədrini zərgər bilər. Həqiqətən də Vurğun şeiriyyətinin məna tutumunu ancaq Şəmşir kimi söz sərrafı belə yüksək qiymətləndirə bilərdi.

*Vurğunun*
Bəxt məni bu yerə qonaq göndərdi,
Gedirəm, yamandı ayrılıq dərdi.
Demə, Səməd Vurğun gəldi-gedərdi,
Unutmaz bu oba, bu mahal məni.
*fikrinə, Dədə Şəmşir*
Şəmşirlə görüşün qaldı yadigar,
Unutmaz nə qədər canında can var.
Səndən dərs almağa diyarbədiyar
Gəzirəm əlimdə şam-çıraq səni.-
*yazır.* (1.səh.82)

Bu da Aşıq Şəmşir böyüklüyünün bariz göstəricilərindəndir. Ustad aşıq şeirin, ədəbiyyatın, sənətin, sənətkarlığın nə olduğunu gözəl bilirdi və Səməd Vurğunun ədəbiyyatdakı mövqeyini, yerinin aydın şəkildə təsəvvür edirdi. Demək, Dədə Şəmşir sadəcə sıradan bir aşıq olmayıb, eyni zamanda müasiri olan şairlərə bənzəyən şeirləri, Səməd Vurğun kimi bir sənətkara obyektiv qiymət vermək bacarığı ilə həm də yazılı ədəbiyyatın nümayəndəsi sayıla bilər. Dədə Şəmşirin böyük şairə verdiyi yüksək qiymət öz obyektivliyi ilə yanaşı, daha yaddaqalan və daha ümumiləmiş bir münasibəti ifadə edir. Ustad aşığın xalq şairinə həsr etdiyi şeirlərdə Səməd Vurğun dühası daha parlaq və hərtərəfli səviyyədə diqqətə çatdırılmışdır. Dədə Şəmşirin xalq şairi Səməd Vurğun haqqındakı fikirləri bütövlükdə xalqın böyük sənətkara bəslədiyi ümumxalq məhəbbətini dolğun şəkildə ifadə edir. Bu da onu göstərir ki, Aşıq Şəmşir istedadla yanaşı, həm də ictimai təfəkkürü olan görkəmli bir sənətkardır. Bu cür qüdrətli sənətkarlar xalqın, millətin yaddaşında və qəlbində əbədi yaşamaq haqqına malikdirlər.

Dədə Şəmşirin mənalı ömrünün bir hissəsi qüdrətli şairimiz Səməd Vurğunla görüş anları oldu. Hər iki sənətkar saatlarla diz-dizə əyləşib o əsrarəngiz, o əzəmətli torpağımızın

ruhunu öz canına hopdurdu, keybir sulardan içdi, dağların saf havasını duydu. Onlar istisuyun əzəmətini, daşı, qayanı yarıb göyə püskürən, neftdən qiymətli sərvətimiz olan İstisu kimi loğmanın şəfasını duydular. Sağ olsun böyük xalqımız ki, Səməd Vurğunu, Aşıq Şəmşiri əkiz qardaş kimi anlayır və duyur. Mən kiçik yaşlarımda Kəlbəcərə gedəndə o dağlarda, Ceyran bulağında gözlərim axtarırdı ki, kaş bir tərəfdən Aşıq Şəmşir, bir tərəfdən də Səməd Vurğun çıxaydı. Hər iki qüdrətli sənətkar, hər iki nurani insan burada görüşəydi, saz çalıb, söz qoşub deyişəydilər. Miskin Abdaldan tutmuş ta Sarı Aşığa, Aşıq Alıya, Aşıq Ələsgərə, aşıq Veysələ qədər aşıq mahnılarını, bir növ, yenidən canlandıraydılar. (1.səh.173)

Səməd Vurğunun təşəbbüsü ilə Aşıq Şəmşir Bakıya dəvət olunur və Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilir. Səməd Vurğun aşıqdan xahiş edir ki, əlyazmalarını Bakıya gətirsin. Onun təşəbbüsü ilə Şəmşirin şerlərinin külliyyatı hazırlanır. Saz-söz sənətində göstərdiyi xidmətlərə görə Aşıq Şəmşir "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür, "Fəxri nişan" ordeni ilə təltif edilir.

Ulu öndər H.Əliyev bu tarixi görüşü öz xatirələrində çox qiymətləndirib: "Baxın ha Səmədlə Aşıq Şəmşir bir dağın döşündəki bulağın qoşa gözüdür. Biri şifahi ədəbiyyatdır biri yazılı ədəbiyyat. Baxın görün bunlar əl-ələ verib qovuşduğu kimi, qucağlaşdığı kimi bu su da bir məcrada necə birləşib. Bu bir xalqın mənəviyyatıdır, bir xalqın dünyasıdır".

"Aşıq Şəmşir yaradıcılığına bütövlükdə nəzər saldıqda göz önündə iki Şəmşir durur: Bunlardan biri köhnə aşıq poeziyası ənənələri ilə düzüb-qoşan Şəmşir, o biri isə Vurğun lirikası ruhunda yazıb-yaradan Şəmşir. Aşıq Şəmşir xalq şairimiz Səməd Vurğunla görüşəndən sonra, bir şair kimi, bir söz ustası kimi daha da şöhrətlənmişdir. Bu yerdə Osman Sarıvəllinin də Aşıq Şəmşir üzərində olan zəhmətini unutmaq olmaz. Aşıq Şəmşirin şeirlərinin kitab kimi çap olunmasında və geniş oxucu kütləsi qazanmasında, Onun böyük rolu olmuşdur".

Şifahi xalq mədəniyyətimizin dərin bilicisi, mahir dastan ifaçısı kimi tanınan söz ustasının bədii yaradıcılığında Azərbaycan təbiətinin gözəllikləri, torpağa bağlılıq başlıca motivlərdir. Ustad aşığın yaradıcılığı öz qaynağını xalqımızın milli-mənəvi dəyərlərini tərənnüm edən zəngin saz və söz xəzinəsindən, klassik sənətkarlarımızın bədii irsindən alır.

Şəmşir şeiriyyətinin çox maraqlı xüsusiyyətləri vardır. Onun yaradıcılığında söz və ifadələrin zərgər dəqiqliyi ilə seçilməsinin, zərif, mədəni yumordan, canlı xalq danışıq dilindən, ədəbi və bədii dilin elementlərindən ustalıqla istifadənin şahidi oluruq. Səmşir yaradıcılığını şərtləndirən başlıca cəhət sözdən ən münasib şəkildə istifadə etmək bacarığıdır. Özünü heç vaxt eldən-obadan kənarda təsəvvür etməyən aşıq, halallığı həyat amalı kimi qəbul etdiyini, son nəfəsini belə el üçün əsirgəməyəcəyini dilə gətirir.

Şəmşirəm, gözlədim adı-sanımı,
Haram yoldan pak saxladım canımı.
El qanından ayırmadım qanımı,
Axsa, el qanına qatasıyam mən. (5)

Şəmşirin lirikasında təbiət gözəllikləri, doğma torpağa məhəbbət əsas mövzulardan birini təşkil edir. Aşıq vətənimizin zəngin təbiətinin özünəməxsus əlvan çalarlarını müşahidə edib, onu poetik dildə öz əsərlərində ifadə etmişdir. (2.səh.233)

Azərbaycan xalqının tarix boyu dünyanın bədii dərkində təbiətlə ünsiyyətin, dağa, bulağa, yaylağa pərəstişin qaynaqları vardı və Aşıq Şəmşir şeirində bunun yeni, tükənməz ifadə çalarları üzə çıxır.

"Mərd ata - mərd oğul" - el misalıdı,
İgidin ürəyi öz mahalıdı.
Kişinin əzası qarışmalıdı
Ölən günü torpağına vətənin! (7)

Aşıq Şəmşir poeziyasının ilham mənbəyi, Vətən sevgisinin əbədi ünvanı qoynunda uyuduğu Kəlbəcər torpağıdır. Kəlbəcər deyəndə Aşıq Şəmşir, Aşıq Şəmşir deyəndə göz önünə Kəlbəcər gəlir. Kəlbəcər Aşıq Şəmşir şeirinin və səsinin beşiyidir. Bu diyarın ona bəxş etdiyi ana südü kimi halal poetik ilhamı ilə Kəlbəcərin möhtəşəm poetik obrazını yaratmışdır.

Danılmaz faktır ki, Səməd Vurğun yaradıcılığında da vətən ilə bağlı əsəsrlər onun yaradıcılığının ana xəttini təşkil edir. Səməd Vurğun təkcə "Azərbaycan" şeiri böyükdən kiçiyə hər kəsin dillər əzbəridir.

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Şair öz xalqını, vətənini, doğma torpağının əsrarəngiz təbiətini sevdiyi üçün "Vurğun" təxəllüsünü götürür. O, özü sonralar belə yazırdı:

Aşiqəm insana və təbiətə,
Əlim qələm tutub yazandan bəri... (6)

Aydın məsələdir ki, iki böyük sənətkarı bir-birinə yaxınlaşdıran, poeziyalarına əbədilik qazandıran əsas amillərdən biri də məhz onların yaradıcılığının mayasında duran böyük vətən sevgisi olub. Hər ikisinin yaradıcılığının ana xəttini vətən və torpaq sevgisi, doğma yurda, elə, obaya dərin məhəbbət hissləri tutur. Vətənin hər daşı, hər qayası, hər bulağı onların qüdrətli qələmi ilə vətənsevərliyin poetik simvolu səviyyəsinə qalxır. Dağların gözəlliyi, onun poetik vəsfi milli əxlaqi dəyərlərin ünvanı kimi mənalandırılır.

### *Ədəbiyyat*

1.Cəmilə Çiçək "Səməd Vurğun-Aşıq Şəmşir dastanı" Bakı, Azərnəşr 2014,181 s.
2.Aşıq Şəmşir — Vikipediya (wikipedia.org)
3.Dədə Şəmşir sənətinin vüsəti... (moderator.az)
4."Şəmşirəm, nə gözəl diyar oğluyam..."- Dədə Şəmşirin xatirəsinə » Dalidag.az
5.Həyatı - Səməd Vurğun (samedvurgun.az)
6.525-ci Qəzet - Sazın qüdrətilə sözün hikmətini qovuşduran ustad - Dədə Şəmşir-125
7.www.anl.az/down/meqale/525/2017/sentyabr/556605.htm

## THE GRAND CREATOR-DEDE SHEMSHIR

***Abdullayeva Gulnar Vahid***

***Summary***

The meeting of two great masters of Azerbaijani oral and written literature Dada Shemshir and Samad Vurghun and the works created after this meeting are the pearls of our literature history. Both prominent craftsmen were fascinated by each - other's work and became close friends. The point that brought them closer to each - other was their emphasis on the art of speech, the motherland, its land, water and air. Dada Shamshir is not only an ordinary ashug, but also a poet who can be considered a representative of written literature with his ability to give an objective value to a craftsman like Samad Vurghun. The creativity of Samad Vurghun and Dada Shemshir is one of the unique pearls of our literature.

## ВЕЛИКИЙ ТВОРЕЦ – ДАДА ШАМШИР

***Абдуллаева Гульнар Вахид кызы***

***Резюме***

Встреча Дада Шамшира и Самеда Вургуна, двух великих мастеров азербайджанской устной и письменной литературы и произведения созданные после этой встречи, являются жемчужинами нашей литературной истории. Оба выдающихся мастера были очарованы творчеством друг - друга и стали близкими друзьями. То, что сближало их друг с другом, заключалось в акценте на искусстве речи, Родине, ее земле, воде и воздухе. Дада Шамшир не был только рядовым ашугом, но и представитель письменной литературы с его умением дать объективную оценку такому художнику как Самед Вургун, стихи которого напоминаю стихи своих современных поэтов. Самеда Вургуна и Дада Шамшира – одна из уникальных жемчужин нашей литературы.

***Rəyçi: dossent İbrahimov Cəfər***
***BDU-Qazax filialı pedaqoji fənlər kafedrasının 15 mart 2023-cü il tarixli iclasın 10 saylı protokolu***
***Daxil olma tarixi 03 aprel 2023-cü il***